XALQ QƏZETİ 31 oktyabr 2018-ci il, çərşənbə

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 466** **Bakı şəhəri, 26 oktyabr 2018-ci il**

***"Nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 12 iyun tarixli 138 nömrəli qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"Nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 12 iyun tarixli 138 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 625; 2006, № 4, maddə 382; 2009, № 7, maddə 610; 2014, № 6, maddə 736; 2016, № 5, maddə 955; 2017, № 3, maddə 512; 2018, № 8, maddə 1817) 1-ci hissəsi ilə təsdiq edilmiş "Nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert komissiyasının tərkibi"nin beşinci abzasında "vergi öhdəliklərinin icrasına nəzarət" sözləri "Rəqəmsal vergi inzibatçılığı" sözləri ilə əvəz edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***